Eh ötən günlərin hər varağında
Neçə arzu odu alışır bəlkə.
Kəndin qırağında
qürub çağında
Şair uşaqlığım dolaşır bəlkə.

Gəl gedək, o sənə yüz şeir desin,
İndi mənim təbim ona çatammaz.
Yox, dayan,
Gözəlsən, səni görməsin,
Uzun gecələri yoxsa yatammaz.

Yığışsın qəmlərim, toy-düyünlərim,
Düzülsün yan-yana neçə qış-bahar.
Utana-utana, ötən günlərim
Əl verib sənինlə tanış olsunlar.

Onda tanıyarsan məni, əzizim,
Sonra bu günədək qaçıb gələrik.
Daha sorğu-sual ayırmaz bizi,
Olub-keçənləri yaxşı bilərik.

1968

Allahın gecə-gündüz işdən, tarpaqdan, ilğımlı çöllərdən və uca dağlardan başqa heç yerdə səadət tapa bilməyən bu məzlum millətinin ruhu, işığı min illəri adlayıb gələn bir möcüzədir.

Yer üzündə insan əlinin, insan əzələsinin abidələri çoxdur: tikililər, texnika, sənət inciləri...

Bəs insan ruhu? Bəs millətin ruhunun işığı? Şeir bu işığın şəklidir, söz-söz hörülmüş ruh abidəsidir...

Şer ruhu əbədiləşdirir. Buna görə də şairin zamandan qorxusu yoxdur.

YOLLARIMIZ

Azərbaycan yollarının ilqarı dönməz,
Qanadlanıb bir oymaqdan
min elə çatır.
Azərbaycan yollarının sonu görünməz,
Əvvəli isə ildırımtək buludlardadır.

Dağ sədləri,
sərhədləri o aşıb keçir,
Qitələri, dənizləri dolaşıb keçir.
Vüsal olur –
sahillərin yadlığı itir,
Qılınc olur –
yağıların şadlığı itir.
Azərbaycan yollarıyla uzaq ellərə
Sevgimizin, kinimizin səsası gedir.

Od payladıq, nur payladıq yaxına, yada,
Azərbaycan – özü boyda sönməz bir işıq!
Addımların ahəngini pozan olanda
Yolumuzu baxışlarla, gözlə salmışıq.

Analar da "göyərçintək qonub yollara",
Yollarımız laylalara silkələnibdir.
Yollarımız durna kimi uçub bahara;
Qıratların dırnağında kilkələnibdir.

Qarlı çöllər...
qanadların səsi qulaqda,
Qumlu səhra...
zınqırovlar... talan yolları.
Bir yol gedib itkinlərlə itib uzaqda,
Bir cüt yol da Babəkimin kəsik qolları!..

Əsrlərin yoxuşunda yorulmayan yol
Bir ətalət dərəsində yorula bilər...
Tufanların qılıncıyla qırılmayan yol
Füzulinin məzarında qırıla bilər...

Azərbaycan!
Ruhu kimi yolları ulu!
Azərbaycan!
Qəlbi kimi yolları geniş!
Babalardan söz qalıbdır: – "Biz dostun qulu..."
Yadlarasa ulduzlar da yol göstərməmiş!

Azərbaycan yollarının ilqarı dönməz,
Bu yol ilə düzlük gedir, həqiqət gedir.
Azərbaycan yollarının sonu görünməz,
Əvvəlisə
nəğmə kimi qəlbimizdədir!..

1971

MÜQƏDDƏS ADƏTLƏR

Müqəddəs adətlər ucaldır məni,
Mən onun eşqiylə yaşayam gərək.
Babam qarşılayıb neçə düşməni
Bir əlində qılınc, birində çörək.

Döyüşlər şənimi dünyaya yayıb,
Bu aləm eşidib mənim səsimi.

Dar gündə qızlar da qılınc
qurşayıb
Vüqarlı, yenilməz igidlər kimi.

Sellərtək axışıb hər qış, hər bahar
Düşmən talayanda elin varını.
Sərkərdə analar, igid analar
Yəhərdə doğublar övladlarını.

Dolansın qoy səsim çölü, çəməni,
Qadını hər şeydən uca sayıblar.
Qapıdan hiyləylə girən düşməni
Qonaq olduğuyçun bağışlayıblar.

Döyüşdə özünü unudur insan,
Dönüb məşəl olur yanar ürəyi.
Döyüşdə qılınclar toqquşan zaman
Sülh bayrağı olub qadın örpəyi.

Elin dar günündə, ağır günündə
Bir tikə çörəyi bölüblər yarı
Baş əyib torpağın, suyun önündə
Günəşi sayıblar öz allahları.

Arxadan səyirdib havalı atı,
İntiqam oxunu öndən atıblar...
Yoxsul bir həyatı, təmiz bir adı
Mənsəbdən, şöhrətdən uca tutublar.

Gəzək Kür boyunda, Mildə, Muğanda,
Bir süfrə başında kəsək duz-çörək.
Xalq ilə əbədi bağlı olanda
Kiçik köksümüzdə dağ olur ürək!

1965

BİR MAHNI OXUYUR KƏND GÖZƏLLƏRİ

Bir mahnı oxuyur kənd gözəlləri.
ay lolo, bir mahnı,
Durmaq da, ayrılıb getmək də çətin.
Qəlbi ovsunlamaq – bizim qızların
Bizim mahnıların qədim adəti...
Mahnıya qarışıb qız zərifliyi;
bəs bu qılınc səsi
nə idi belə?!
Dinləyin:
deyirlər tozlu yollara
neçə əsrlərdi bir gözəl çıxır,
igidlər qürbətdən yol gəlir hələ...

Durna qatarıtək sıralanıblar,
ancaq nəğmələri daha həzindi.
İki çiçək səfi durub üz-üzə,
ya ulduz bürcləri belə bəzəndi?!
"Burdan bir atlı keçdi,
ya ləlli, qurbanın olum,
Atın oynatdı keçdi,
ya ləlli, ya ləlli..."
Bu, hansı xoşbəxtin sevgi payıdı –
nə yerə bəllidi, nə göyə bəlli.
Burda yaralanmaq arzular könül,
mahnı susanda da yara təsəlli...

Bir mahnı oxuyur kənd gözəlləri...
Axşamlar bu mahnı dilə gələndə,
niyə için-için ərimir dağlar?!
Niyə ayaq tutub ordular kimi
yerimir dağlar?!

Belə ki atəş var bu mahnılarda
sönmüş atəşgahlar nə üçün yanmır?

Niyə külək kəsmir, meşələr susmur,
bulaqlar lal olmur,
çaylar dayanmır?!

Necə qovuşubdur odla su burda,
Mahnılar pərişan, mahnılar sirli.
Qızların özləri Nigar həyalı,
Qızların mahnısı qılınc kəsərli!..

Bir mahnı oxuyur kənd gözəlləri,
sədalar zamanı zamana calar.
Hardasa yol gözlər banubirçəklər,
Hardasa at çapar amazonkalar.

Mahnılar; ay lolo, torpaq təpərli,
Qulağa min ilin harayı çatır.
Torpaqda gizlənmiş xəzinə kimi,
Bizim ürəyimiz mahnılardadı!..

1971

XATİRƏ QATARI

Fikrimin işıqlı vadiləriylə
Bir maşın şütüyər, bir qatar gedər.
Orda illər boyu lal kədəriylə,
Gözlər dumanlanar, əllər yellənər.

Gözlər nizə kimi deşər şüşəni,
Üstümə intizar ələr bir baxış.
Bir baxış harasa ötürər məni,
Uzun ayrılıqdan gələr bir baxış...

Uzalı əllərlə qaçıb dalımca
biri qatarları saxlamaq istər.
Xəyali öpüşün dəli odunda
biri hisslərimi yoxlamaq istər.

Kimsə unudular –
bir işıq sönər,
Baxar sədaqətli həsrətlə biri.
Gedər yaddaşımın son mənzilinə
uzaq xatirənin sərnişinləri...

Çoxunu bircə yol görmüşəm bəlkə,
Ya da vüsalımız bir qısa gündü.
Görüşün dalınca vida təhlükə,
Bu rahat sevinclər bəs nə üçündü?!

Gedər vaqonlarda uzaq tanışlar,
Onları bu günə qaytarmaq çətin.
Rahat bir kupedə bir istək yanar –
Ağlayar
təqsirsiz ilk məhəbbətim.

Qaytara bilsəydim bu xatirəni,
Qatarlar geriyə dönsəydi əgər –
Yəqin ki, onların bəzilərini
Qoruyub saxlardım indiyə qədər.

Yol gedir...
görünmür səfərin sonu,
Yol keçir ağrıdan, oddan, ümiddən.
Saxlayın xatirə qatarlarını,
Kimisə düşürtmək istəyirəm mən...

1968

RƏQQASƏ

Sən ortada ağ şam kimi yanırdın,
İşığına axışırdı alqışlar.
Heyrətimdən daşa dönüb kənarda
Tək mən idim əl vurmayan –
bağışla!..

Alov kimi burulurdu əllərin,
Bəxtəvərsən, hava gəldi – oyna, yan.
Elə baxma, sirrim məni ağrıdır,
İnsaf elə, ay qol açıb oynayan!..

İnsaf elə, qədəm basma bu yola,
Qoyma fikrim bulud kimi tellənsin.
Niyə məni gətirmirsən buraya,
Niyə qoydun "Vağzalı"nı dillənsin?!

Bu havayla ağ geyimdə, ağ üzlə
Bəy evinə çeşmə kimi duru gəl.
Müqəddəsdi,
hər məclisdə oynama,
"Vağzalı"nı toy gününə qoru, gəl.

1973

SƏNDƏN KÜSMÜŞƏM

Dağ mavi qartaldı, duman qanadı,
Laləni köksümə sıxdım, qanadı.
Yollar yoxuşlarla məni sınadı,
Yolları bağlayan çəndən küsmüşəm,
Səndən küsmüşəm.

Qaya sözeşitməz, külək qamçılı,
Buz kimi bulaqlar şəfəq damcılı,
Sənin qəlbin ipək, dilin qamçıdı –
Çırpıldı arzuma gendən, küsmüşəm,
Səndən küsmüşəm.

Qəlbin sözlə dolu, gözün yağışla...
Oda pərdə çəkdin buzdan naxışla,
Oxşadın ürəklə, döydün baxışla;
Sənə rast olduğum gündən küsmüşəm,
Səndən küsmüşəm!..

1969

TƏZƏ PƏRDƏ

Ulu babam Rüstəmxanın
Alapaça atı varmış.
At qiymətli bir papağı,
Toz götürməz adı varmış.
Boydan hündür, səsdən uca...
Öz yerini bilən olub.
Söz altında qalmaqdansa
Söz üstündə ölən olub!
Uzaq eldən qız gətirib,
Sonra işi düz gətirib.
Bir gövdədən
Yeddi budaq haçalanıb,
Yeddi oğul el içində ad çıxarıb.
Yeddi köhlən tərpənəndə
Daş yollardan od çıxarıb.

Bizim nəsil bir sevginin
Nüvəsindən şaxələnib.
Qayalarda sığnaq tapan
qoç igidin
Yuvasından şaxələnib.
Neçə arxa, neçə qanad,
Neçə çarpaz, neçə düyün...
Budağından tumurcuqtək
Çırtlamışam mən də bir gün.
O ulusun adı məndə –
Babaların şax səsiyəm.
Bizim nəsil – saz qoludu,
Onun təzə pərdəsiyəm...

1972

MƏNİ SEVİRSƏNSƏ

Düşünsək, düz gəlməz sözünün çoxu,
Ocaqsız bir evdə necə köz olar?
Mənim bu qollarım yaxşısa axı,
Kəndin o yolları necə pis olar?

Yüz yol oxşadığın qara saçım da
Zirvədən yadigar topa buluddu.
Baxıb bu boyumla öyünən zaman
Boylu çinarları niyə unutdun?

Məni sevirsənsə – dağları da sev,
Çaylar da qəlbinə axıb qoşulsun.
Yamacda tək duran balaca bir ev
Büllur saray kimi sənə xoş olsun.

Ot basmış bir yolam, çöləm, çiçəyəm,
Çölləri sevmədin, çiçəyi sevdin.
Kökümdən aralı kiməm, nəçiyəm,
Gövdəsiz
budaqda bəs nəyi sevdin?

Bu soyuq təmkin də məndə yenidi,
Doğulub ömrümün harasındasa.
Kəndə yolun düşsə axtar məni də
Dəcəl uşaqların arasında sən.

Sənə bu ayrılıq gəlməsin asan,
Bizə qan dağıdan ürəkdi ora.
Kəndə nə! –
Yüz belə oğlu olmasın,
Mənəsə ömürdü, gərəkdi ora.

Eh, küskün, biganə qaçağa bənzər
Göylərə şəhərdən yaxın obalar.
Kəndlərdə yaşamaq pisdirsə əgər,
Necə şöhrət tapıb orda babalar?!

1968

YOXLAMA

Sənsiz itib yolum, sönüb ulduzum,
Sənsiz tamı yoxdu çörəyin, duzun,
Bir gün ayrılığın illərdən uzun,
Dayan, yoxluğunla yoxlama məni.

Yetim uşaq kimi qəhərlənmişəm,
Qəm əkib, qüssədən bəhərlənmişəm,
Sənsiz hər baxışdan zəhərlənmişəm,
Səni də öldürrəm, qoxlama məni!

Ağrı qırış olub bitər üzündə,
Duam, qibləgahım gedər üzündə,
Səni itirərsəm bu yer üzündə,
Bu yerin üstündə saxlama məni!

Yetmiş ildi dünyanın altıda biri qırmızı alova bürünüb yanır. Kənarda dayananlar da, alovun içindəkilər də bilir ki, bu söndürülməlidir. Amma öz-özünə yanıb qurtarmayana qədər yaxın düşmək olmur. Mübarizə adına qalxırsan, səni də yandırır. Amma sərçə kimi hərə bir damla su atsa yanğın böyüməz. O tək-tək damlalar zamanı nə qədər irəli çəkir, yanğının tez sönməsinə nə qədər xidmət edir? – bunu hesablamaq çətindir. Amma vaxtın dəyirmanını işlədən də o damlalardır.

XƏBƏR GÖZLƏYİRƏM

Xəbər gözləyirəm... Kimdən; hayandan?
Hansı məmləkətdən, hansı zamandan?
Hansı ocaqlarda alışan közdən?
Gözümə yığdığım hansı dənizdən?
Cavab almadığım neçə sualdan,
Uzaq xatirədən, sirli xəyaldan
Xəbər gözləyirəm, şirin, xoş xəbər.
Taletək dalımca dolaşıb gəzən,
Məni axtarmaqdan yorulmuş xəbər...

Gələ bir məktubun qanadı üstdə,
İsti təbəssümdə, doğma nəfəsdə.
Dərələr dolduran gur seldə gələ,
Bəxtimə açılan könüldə gələ.
Hər dost sevgisindən gətirə bir pay,
Bağlı qapıları açа taybatay.
Cücərə baharın otları kimi,
Şığıya bir sürət qatarı kimi.
Lap elə ümidin son nidasında,
Lap elə ölümün astanasında –
O axtara məni, o tapa məni.

Gələ, gözlədiyim xəbərim gələ,
Gələ, o əbədi zəfərim gələ.
Görəm ki, süfrəmin başında bir gün,

Bir xəbər oturub əziz qonaqtək.
Görəm ki, evimin gur işığında
Alışır bir sevinc, yanır bir ürək...

Xəbər gözləyirəm, kimdən, hayandan,
Hansı ümidlərdən, hansı gümandan?
Bağlı sərhədlərin üstündən aşan,
Yolları sorğusuz gəzib dolaşan,
Ayrı sahillərə körpülər salan,
Adsız şəhidlərin heykəli olan,
Mənə ana kimi yanan bir xəbər.
Məni Vətən kimi duyan bir xəbər!
İtmiş sevgi kimi qayıdıb gələn,
Ömrün baharını oyadıb gələn,
Müştuluq bir xəbər, şirin bir xəbər,
Şəfəqdən don geyən aydın bir səhər.

May, 1977

GERİ DÖNMƏLİYİK

Astara yolları uzanıb gedir
Təbrizə bir baş.
Geri dönməliyik biz isə, qardaş.
Qabil

Sözündə həsrətim yandı elə bil,
Sabaha nələri tanıtmalıyıq? –
Astara çayından Bakıya deyil
Bu gündən keçmişə qayıtmalıyıq!

Muzeylər küncündə, tarixim çin-çin,
Karvanlar yurdumdan nələr daşıdı!
Geriyə qayıdış şair qəlbinin
Bəlkə, ilkinliyə çağırışıdı,
Bəlkə, gələcəyə çağırışıdı.

Andımdı, yazımdı – torpaqda izim.
Qara torpağıma üzü ağ deyək.
Zirvəmiz arxada qalıbsa bizim –
Geriyə dönməyə ucalmaq deyək!

Geri dönməliyik! – Asanmı məgər?
Düzlərə gör neçə duman enibdir.
Təbrizə uzanan bu yollar təki,
Tarixin özü də çəpərlənibdir.

Bizi özümüzdən ayrı salmağa
Məktəblər qurulmuş, fənlər yaranmış,
Milləti atomtək parçalamağa
İndi zəncirvarı fəndlər yaranmış...

Nə sayım, birdirmi, beşdirmi onlar:
Var quru sərhəddi, var su sərhəddi.
Fikrimi, ağlımı əlimdən alar
Ətalət sərhəddi, qorxu sərhəddi.

Kökümlə arama uçurum salar,
Əlifba sərhəddi, yalan sərhəddi.
Tarixin üzündə çapıq tək qalar
Millətin ruhunu talan sərhəddi.

Sərhədlər çəkilib qaş ilə gözə,
Ayaqsız ləpirik, mənzilsiz yoluq.
Hər adam başına sərhəd bölünsə
Dünyada, bəlkə də birinci olluq...

Yollarım qırılmaz, baharım solmaz,
Araz qırağında batmayaq yasa.
Sərhəd çəkilməklə millət ayrılmaz –
Ruhunda ayrılıq yaranmayıbsa!..